# Fransa hakimiyyəti xoşbəxtliyini ermənilərin bədbəxtliyi üzərində qurmaq istəyir

Fransanın Ermənistan üzərindən Cənubi Qafqazda yeritmək istədiyi siyasət heç bir nəticə verməyəcək, gec-tez iflasa uğrayacaq. Azərbaycanın haqlı mövqeyi, beynəlxalq prinsiplərə əsaslanan çevik siyasəti, regionda söz sahibi olması Parisin çirkin planlarını alt-üst edir və edəcək. Ermənistanın və onun havadarlarının beynəlxalq birliyi aldatmaq cəhdləri isə bumeranq effekti verərək onların özlərini məhvə sürükləyəcək.

→ 4

# Fransa hakimiyyəti xoşbəxtliyini ermənilərin bədbəxtliyi üzərində qurmaq istəyir

Dünyada hamı sülh, əmin-amanlıq istəyir. Adətən, sivil dövlətlər sülhə, əmin-amanlığı can atır. Çalışır ki, xalqı sülh şəraitində yaşasın. Əllər silaha uzanmasın, atəş açılmasın, güllələr, mərmilər nərildəyib, guruldayıb dünyanı qana boyamasın. Amma təəssüf ki, elə dövlətlər də var ki, əksinə, sabitliyi, sülhü pozmaq istəyirlər. Daim müharibəyə, münaqişəyə can atırlar. Belə dövlətlərdən biri və bəlkə də elə birincisi Fransadır. Bu gün Fransa işğalçı Ermənistanla öz maraqları xatirinə dostluq edən və Cənubi Qafqazda sülhə, əməkdaşlığa qarşı çıxan dövlətdir.

Bu addımı ilə Fransa Ermənistanla sonu ağır fəsadlara gətirib çıxaracaq çox təhlükəli bir oyun oynayır. Ermənistana xoş gəlsin deyə Azərbaycanla olan əvvəlki münasibətləri korlayır. Fransanın anti-Azərbaycan siyasəti özünün çirkinliyi ilə diqqəti cəlb edir. Paris bir tərəfdən Bakıya qarşı erməni "kartından" geniş istifadə edir, digər tərəfdən bölgənin ən zəif bəndi olan Ermənistanı silahlandırmaqla, onu qəsdən yeni hərbi qarşıdurmaya sürükləyir. Bu hərəkəti ilə Azərbaycana hərbə-zorba gəlmək görüntüsü yaratmağa çalışır. Bir növ güc nümayiş etdirmək istəyir. Qərəzli, riyakar addımlar atır. Təbiidir ki, belə addımlarla da çox uzağa gedə bilmir. Əksinə, zaman keçdikcə dünyada qınaq obyektinə çevrilir.

Prezident İlham Əliyevin XI Qlobal Bakı Forumundakı çıxışında verdiyi ən ciddi mesajlarından biri də Fransanın Azərbaycana yönəlmiş qərəzli mövqeyi ilə bağlı idi. Rəsmi Parisin hazırda yürütdüyü xarici siyasətin regiondakı reallıqlara beynəlxalq ictimaiyyətin yanaşması ilə ziddiyyət təşkil etdiyini diqqətə çatdıran dövlət başçımız Fransanın BMT başda olmaqla, bir çox beynəlxalq təşkilatlarda ölkəmizə qarşı sanksiyaların tətbiqinə dair uğursuz cəhdlərini yada salmışdı. Prezident çıxışında demişdir: "Ukraynaya ərazi bütövlüyünü bərpa etməyə kömək üçün qoşun göndərəcəyini bəyan edən Fransanın öz ərazi bütövlüyünü bərpa etmiş Azərbaycana qarşı qərəzi qəbuledilməzdir".

Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində və antiterror əməliyyatlarında erməni separatçıları üzərində qələbə qazanması Fransa hökumətinin xoşuna gəlməyib. Bundan sonra açıq şəkildə separatçıları, işğalçıları dəstəkləməyə başlayıb. Məhz Fransanın günahı ucbatından iki ölkə arasındakı əvvəlki münasibətlər soyuyub.

Hadisələrin gedişindən aydın görünür ki, Paris Cənubi Qafqaz ölkələri arasında münasibətlərin normallaşması prosesinə mane olur, süni gərginlik yaradır. Fransanın Ermənistan vasitəsilə Cənubi Qafqazda fəallaşması onun çirkin məqsədlərindən xəbər verir. Makron Afrikada, Orta Asiyada




itirdiklərini Cənubi Qafqazda tapmaq istəyir. Bütün bunlar isə Parisin xəyallarından başqa bir şey deyil. Xəyalla reallığın arasında isə məsafə olduqca böyükdür. Makron bu məsafəni qət edə bilməz. Emmanuel Makron təkcə beynəlxalq aləmdə deyil, ölkə daxilində də olub-qalan nüfuzunu itirib. Fransa hökuməti dünyadakı nüfuzunu bərpa etmək üçün işğalçılıq siyasətindən əl çəkməlidir, Cənubi Qafqazda sülhə mane olmamalıdır, Ermənistanı silahlandırmamalıdır. Fransızlar öz xoşbəxtliyini erməni xalqının bədbəxtliyi üzərində qurmamalıdır. Əgər bu gün rəsmi Paris siyasətində buraxdığı səhvləri düzəltməsə, sabah daha da dərin böhranla üzləşəcək. Bu böhran isə Makron hakimiyyətinin sonunu gətirəcək. Əgər Makron, həqiqətən də, normal siyasətçi olsaydı, hakimiyyətə gələn kimi güclü hökumət qurardı. Erməni lobbisinin sifarişçisinə çevrilməzdi.

Ümumiyyətlə, Fransa kimi qədim dövlətçilik ənənələri olan ölkənin bir ovuc erməni lobbisinin əlində əsir-yesir qalması çox biabırçılıqdır. Ermənipərəst mövqeyi ilə Fransada çoxlarını arxada qoyan Makronun avantürist ritorikası, məntiqsiz aqressiyası onu çıxışı olmayan dalana salıb.

Azərbaycanın regionda sülh, sabitlik və inkişafı təmin etmək cəhdləri fonunda Parisin qərəzli mövqeyini hər kəs aydın görür. İrəvan da Parisin siyasətinin arxasında hansı gizli maraqların dayandığını düşünməlidir. Fransanın ermənipərəst siyasəti aldadıcıdır, forma və metodunu şəraitə uyğun olaraq dəyişir. Bu gün Fransadan Ermənistana siyasi dəstək verilir, hərbi yüklər göndərilir. Belə kömək 44 günlük Vətən müharibəsinin davam etdiyi günlərdə də olmuşdu. Amma bütün bunlar heç bir nəticə verməmişdi. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Ermənistanı diz çökdürmüşdü. Əminliklə demək olar ki, əgər iki ölkə arasında Parisin günahı ucbatından yenidən qarşıdurma yaransa, Fransanın bu gün Ermənistana verdiyi döyüş texnikaları bir müddətdən sonra ölkəmizin paytaxtındakı Hərbi Qənimətlər Parkında eksponat kimi nümayiş etdiriləcək. Çünki "dəmir yumruq" əvvəlki yerindədir və daha da güclənibdir.

Fransanın Ermənistan üzərindən Cənubi Qafqazda yeritmək istədiyi siyasət heç bir nəticə verməyəcək, gec-tez iflasa uğrayacaq. Azərbaycanın haqlı mövqeyi, beynəlxalq prinsiplərə əsaslanan çevik siyasəti, regionda söz sahibi olması Parisin çirkin planlarını alt-üst edir və edəcək. Ermənistanın və onun havadarlarının beynəlxalq birliyi aldatmaq cəhdləri isə bumeranq effekti verərək onların özlərini məhvə sürükləyəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 4 aprel, № 69.- S.1, 4.